

# CANLI XARAKTERLƏR USTASI

**Məktəbdə oxuyarkən qəlbində baş qaldıran sonsuz səhnə sevgisilə Dəmiryolçular klubunda görkəmli aktyor Ağadadaş Qurbanovun rəhbərlik etdiyi dram dərnəyinə gəlir. Gənc Tamaşaçılar Teatrının səhnəsində oynadığı tamaşalardan, "Səbuhi" filmindəki Bakıxanov rolundan yaxşı tanıdığı Ağadadaş Qurbanovla görüşünü təsəvvürünə gətirəndə yol boyu həyəcanını gizlədə bilmir. Ağadadaş Qurbanov ilk söhbətdən sonra düşünmədən nigaran baxışlı qara gözlərini ona zilləyən məktəb şagirdini dram dərnəyinə götürür. İllərdən sonra milli aktyor məktəbimizin mənəvi şah sütunlarından biri olan Səyavuş Aslan beləcə dram dərnəyinin tamaşalarında ilk səhnə addımlarını atır...**

Aslanov Səyavuş Məmmədağa oğlu 1935-ci il sentyabrın 5-də Bakıda doğulub. 1 saylı məktəbin 7-ci sinfini bitirəndən sonra sənədlərini Dəmiryol texnikumuna verir. Texnikumda oxuyarkən maşinist köməkçisi işləyir. 1947-53-cü illərdə dram dərnəklərində çıxış edir. 1954-cü ildə Musiqili Komediya Teatrının xor heyətinə qəbul olunur. 1954-cü ildə ordu sıralarına çağırılır. 1957-ci ildə ordu sıralarından tərxisdən sonra 1958-ci ildə Quba Dövlət Dram Teatrında aktyor kimi fəaliyyətə başlayır. 1959-cu ildə Bakıya qayıdan Səyavuş Aslan sənət taleyini Musiqili Komediya Teatrı ilə bağlayır.

24 yaşlı gənc fitri istedadı, realist oyunu, nəhayətsiz fantaziyası ilə teatr truppasının diqqətini çəkir. Tezliklə Səyavuş tamaşalarda teatrın aparıcı aktyorları ilə çiyin-çiyinə çalışır. İncə yumorla yanaşı tünd satira boyaları mənalı, düşündürücü gülüşünü aydın səciyyələndirir. Oynadığı rolun xarakterinə uyğun tamaşadan tamaşaya Səyavuş Aslanın gülüşü mənasını, məzmununu dəyişir. Nifrətdən uzaq olan bu gülüş bəzən düşündürür, bəzən isə nikbin notlara köklənir.

Səyavuş Aslan "Ulduz"da Məhəmməd və Şubay, "Özümüz bilərik"də İbişov, "Olmadı elə, oldu belə"də Alanzadə, "Məşədi İbad"da Həsən bəy, Hambal, Məşədi İbad, "Ev bizim, sirr bizim"də Tofiq, "Qaynana"da İlqar, "Gözün aydın"da Səlyanski, "Axırı yaxşı olar"da Şəkərli kimi obrazlar qalereyarısı ilə şöhrətlənir; teatrın səhnəsində oynadığı rolların müəllifi kimi tanınır. Qazandığı nailiyyətlərdən "ulduz" xəstəliyinə tutulmaması, nizam-intizama ciddi riayət etməsi ilə kollektivin xüsusi hörmətini qazanır.

Hələ dram dərnəyinə gedərkən Ağadadaş Qurbanovun təlqin etdiyi sənət sirlərilə bərabər ciddi nizam-intizam qaydalarını da o, həyatı boyu qoruyur. Atası Məmmədağa kişi dünyasını dəyişən gün Səyavuş "Durna" tamaşasındakı Dursun rolunda səhnəyə çıxır. Tamaşanı izləyən nüfuzlu qonaqlar və teatrın rəhbəri Şəmsi Bədəlbəyli Məmmədağa kişinin ölüm xəbərini eşidəndə Səyavuşun sənətkar məsuliyyətinə heyrətdə qalırlar.

Musiqili Komediya Teatrının tamaşalarındakı müvəffəqiyyətlər Səyavuş Aslanın sənət həyatında olduqca mühüm rol oynayır. 1963-cü ildə o, "Əhməd haradadır" və "Romeo mənim qonşumdur" filmlərinə dəvət alır. Ağır aktyor əməyi tezliklə özünün şirin bəhrələrini verir. 1964-cü ildə ekrana çıxan bu filmlərdə Səyavuş Aslan ekranda da özünəməxus üslubu ilə tanınır.

Tezliklə əməkdar incəsənət xadimi, kinorejissor Ağarza Quliyev Səyavuş Aslanı quruluş verdiyi "Ulduz" filmində Şubay roluna çəkir. "Ulduz" Səyavuş Aslanın yaradıcılığı yolunda sənət hadisəsi kimi yadda qalır. Lakin təəssüf ki, uzun illər o, kinorejissorların diqqət dairəsindən kənarlaşır. Yalnız 1980-ci ildə əməkdar incəsənət xadimi, kinorejissor Nicat Bəkirzadənin "Yol əhvalatı" filmində Qurban rolunda çəkiliş meydançalarında görünür.

Qurban obrazı sovet kinodramaturgiyasında ənənəvi alverçi tiplərindən olsa da Səyavuş Aslan bu rolu sonsuz təxəyyülü, zəngin fantaziyası ilə, yüksək ustalıqla oynayır; mənalı yumor boyaları, tapıntıları, bəxş etdiyi düşündürücü gülüş növbəti ekran uğurunun əsası olur.

Xalq Artisti Hacı İsmayılovdan aldığım müsahibədən:

*Yaxşı yadımdadır, institutda oxuyarkən Süleyman Ələsgərovun "Ulduz" filmi çəkilirdi. Çəkiliş Mərdəkanda Mədəniyyət sarayında idi. Tələbələri də institutdan apardılar. Mən ilk dəfə orada Bəşir Səfəroğlunu, Hacıbaba Bağırovu və Səyavuş Aslanı gördüm. Filmdə Səyavuş Aslan Şubay rolunda çıxış eləyirdi. Təsəvvür eləməzdim ki, illər keçəndən sonra onunla televizorda, teatrda, kinoda bir yerdə iştirak edəcəyik. Səyavuş Aslanla mən "Yol əhvalatı", "Bəyin oğurlanması" filmlərində bərabər çəkildik. Heç bilmirdik ki, illər keçəndən sonra bu filmlər tamaşaçılar tərəfindən çox seviləcək. "Yol əhvalatı"nda Səyavuş Aslan maraqlı improvizələr edirdi. Cürbəcür nüanslar, sözlər tapırdı. Mən özüm baxanda o filmə onun oyunundan ləzzət alıram. Səyavuş Aslan elə bir qəribə oyun tərzi seçmişdi ki, onun oyununa valeh olmamaq olmurdu. Filmə baxanda bir daha Səyavuş Aslanın qüdrətli aktyor olduğuna inanırsan. Şükürlər olsun ki, Azərbaycan mədəniyyətində Səyavuş Aslan kimi qüdrətli, bacarıqlı, sevilən bir aktyor var.*

Azərbaycan televiziyası ilə yaxından əməkdaşlıq Səyavuş Aslanın sənət fəaliyyətində əsas qollardan biridir. O, Ana televiziyamızda müxtəlif verilişlərdə, film-tamaşalarda yaxından iştirak edir. Unudulmaz sənətkarın iştirakı ilə çəkilən tamaşalar bu gün də Ana televiziyamızın qızıl fondunda nadir incilər sırasındadır. "Adı sənin, dadı mənim" tamaşasında Qəlyanalı, "Evləri köndələn yar"da Nadir, "Yaşıl eynəkli adam"da Seyfulla Səyavuş Aslan yaradıcılığının qiymətli nümunələridir.

O, tamaşaçıları güldürməyə çalışmır. İfa tərzində süni gülüş effektlərindən qaçır. Bəxş etdiyi gülüş tipin xarakterindən, düşdüyü komik vəziyyətdən yaranır. Gülüş palitrasındakı rənglər, rəng çalarları əlvan və müxtəlifdir.

Səyavuş Aslanın sənət həyatı heç də hamar olmur; fitri istedadı ətrafında da müxtəlif intriqalar yaradır. Nəsibə Zeynalova, Hacıbaba Bağırovla bərabər Səyavuş Aslanın da afişalarda adının yazılması hər tamaşanın anşlaqla keçəcəyindən xəbər verir. Bu kimi hallardan narahat olanlar münasibətlərə sərinlik gətirir, süni konfliktlər yaradırlar. "Hicran" tamaşasındakı məşhur səhnədə həyatda bir-birilə küsülü olan üç sənətkarın aktyor oyunu hamını bir daha heyrətdə qoyur. Sənətin ecazkar gücü üç dahinin - Nəsibə Zeynalovanın, Hacıbaba Bağırovun və Səyavuş Aslanın oyununda öz sözünü deyir...

Amplua anlayışı Səyavuş Aslanın istedadına zidd idi. Sənətkar ürəyi dramatik rolları ifa etmək arzusu ilə də döyünürdü. O, alovlu sənət sevgisi ilə 1984-cü il oktyabrın 5-dən fəaliyyətini Milli Dram Teatrında davam etdirir. Milli Dram teatrının səhnəsində həm dramatik, həm də komik rolları məharətlə oynayır. Milli Dram Teatrının Türkiyəyə qastrol səfərindəki çıxışları tamaşaçı sevgilərilə alqışlanır.

Səyavuş Aslanın Milli Dram Teatrının səhnəsində oynadığı dramatik və komik rollarda da sənət qələbələri qazanır. Romul Avqustil ("Böyük Romul"), Poloni ("Hamlet"), Luka ("Həyatın dibində"), Oddamdı ("Od gəlini"), "Mindilli" ("Nişanlı qız"), Vəzir Mirzə Həbib ("Lənkəran xanın vəziri"), Ağəli ("Günah"), Fəriş ("Bizim qəribə taleyimiz"), Aslan ("Yalan"), Cabbar ("Sevgililərin cəhənnəmdə vüsalı"), Vanya ("Hökmdar və qızı"), Əsədulla ("Ah, Paris!.. Paris!..), kimi rolları səhnə həyatının parlaq səhifələridir.

Bu illərdə kinorejissorlar daha tez-tez Səyavuş Aslana müraciət edirlər. Unudulmaz aktyorun ekran obrazları orijinal yozumu ilə fərqlənir. O, sənət palitrasında fərqli ifadə vasitələrinə üstünlük verir. Ənənəvi ştamplara, təkrarlara yol vermir. Təqdim etdiyi hər obraza bədii ümumiləşdirmələr ilə yanaşır. "Bəyin oğurlanması"nda Mustafa, "Evlənmək istəyirəm"də Hacı Kamyab, "Hacı Qara"da Hacı Qara, "O dünyadan salam"da Şeyx Nəsrullah", "Yuxu"da Fərəcov və onlarla müxtəlif səpkili rollarda öz sözünü deyir.

"Yuxu" filmindəki Fərəcov obrazı üçün aktyor xarakterik danışıq üslubunda, davranışında, yerişində, səs tembrində həmişə olduğu kimi yığcam ştrixlərlə üstünlük verir. Təqdim etdiyi tipi canlı insan kimi yaradır, ifa tərzində obrazın həyatiliyini, daxili ritmini, plastikasını vurğulayır. Fərəcov obrazı ilə ekran yaradıcılığında yeni səhifə açmağa nail olur.

Səyavuş Aslan 2002-ci ildə kinorejissor Cahangir Mehdi və Elnur Mehdinin "Hacı Qara" musiqili komediyasında baş rola çəkilir. Hacı Qara obrazı Səyavuş Aslanın kino fəaliyyətində xüsusi yer tutur. Milli kinomuzda Hacı Qara obrazını ilk dəfə A.M.Şərifzadənin quruluşunda M.A.Əliyev özünəməxsus gülüşlə yaradıb. Təqlidçilikdən uzaq olan Səyavuş Aslan Hacı Qara obrazına fərqli mövqedən yanaşır.

Görkəmli aktyorun ekranda fəth etdiyi sənət zirvələrindən birinə çevrilir Hacı Qara obrazı... Hacı Qaranın xəsisliyi, qəddarlığı, riyakarlığı, eyni zamanda mütiliyi və qorxaqlığı oyununda əksini tapır.

O, Hacı Qaranın xarakterik xüsusiyyətlərini canlandırmaq üçün yeni-yeni təsvir boyaları seçir. Baxışlarında, mimikalarında, əl-qol hərəkətlərində, mizanlarında Hacı Qaranın yaşadığı vəziyyəti sənətkarlıqla ifadə edir. Hacı Qaranın xəsisliyi tünd satirik boyalar ilə bitkin oyununda ekran təcəssümünü tapır. Molla, Qulaməli, bəylər, pristav ilə epizodlarda Səyavuş Aslan - Hacı Qara tamamilə başqa simadadır.

Səyavuş Aslan - Hacı Qara Qulaməliyə qarşı nə qədər rəhmsiz və qəddardırsa, pristavın qarşısında bir o qədər müti və qorxaqdır. O, bəylərlə söhbətində qazanc əldə edəcəyini biləndə büsbütün dəyişir. Yüksək texnikası, yaracılıq fantaziyası ilə Səyavuş Aslan Hacı Qara obrazında realist boyalara daha çox üstünlük verir.

Adətən, rejissorlar Səyavuş Aslanın ekranda yaratdığı obrazların səsləndirilməsini tamamilə düzgün olaraq aktyorun özünə həvalə edirlər. Ekran obrazlarını Səyavuş Aslanın özünün səsləndirməsi onların bədii təsir qüvvəsini daha da artırır.

Kinorejissor Tofiq Tağızadənin "O dünyadan salam" filmində Səyavuş Aslan Hacı Həsən ağa obrazını yaradır. Obrazın uğrunda fitri istedadı ilə bərabər böyük sənət təcrübəsi də təsirsiz ötüşmür. Oyun üslubuna uyğun olaraq yaratdığı tipin daxili dünyasını açmağa xüsusi diqqət verir. Hacı Həsən ağanın bədii obrazını rəngarəng satirik boyalar ilə tamamilə fərqli biçimdə—yaşadığı dövrün, mühitin tipik nümayəndəsi kimi canlandırır.

1994-cü il fevralın 4-də Musiqili Komediya Teatrında bədii rəhbər vəzifəsində çalışır. Bu illərdə "Beş manatlıq gəlin", "Əlli yaşında cavan" operettalarına quruluş verir. Səyavuş Aslanın quruluşlarına məzmun və forma vəhdəti, dinamika, xarakterlərin maraqlı rejissor yozumu xasdır. Səhnə mizanları hadisələrin təfsirində rejissor fikrini obrazlı şəkildə tamamlayır. Rejissor kimi fərdi üslubu, qazandığı böyük səhnə təcrübəsi, səhnə estetikasına vaqifliyi tamaşaların məhvərində dayanır. Səyavuş Aslan rejissor kimi də səhnədə öz sözünü deyir. Quruluşlarında Musiqili Komediya Teatrının səhnə ənənələrini inkişaf etdirərək yaradıcı rejissor üslubu ilə tanınır.

1996-cı ildə Səyavuş Aslan səhnə fəaliyyətini yenidən Milli Dram Teatrında davam etdirir.

Teatr və kino aktyoru kimi fəaliyyət göstərdiyi müddət ərzində bir sıra fəxri adlar, mükafatlar, orden və medallarla təltif olunur. 1973-cü ildə "Azərbaycan SSR-in Əməkdar artisti", 1982-ci ildə "Xalq artisti" fəxri adlarına, 1995-ci ildə "Şöhrət" ordeninə, 2002-ci ilin iyul ayında Prezident mükafatına, 2003-cü ildə Prezident təqaüdünə layiq görülür. 2010-cu ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Azərbaycan incəsənətinin inkişafındakı xidmətlərinə görə unudulmaz sənətkarın "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu", 2013-cü ildə isə "Şərəf" ordeni ilə təltif edilməsi barədə sərəncamlar imzalayır. Səyavuş Aslan 2013-cü il iyun ayının 27-də Bakıda dünyasını dəyişir.

Səyavuş Aslanın milli kinomuzda öz yolu, öz imzası oldu. O, sənətdə açdığı yol ilə tanındı. Nadir komizmi hamıya sonsuz təbəssüm və gülüş bəxş etdi. Ekranda yaratdığı rəngarəng obrazları ilə unudulmaz aktyor hamının qəlbində əbədiyyətə qovuşan sənət həyatında daim yaşayacaq.

**Hatəm ƏSGƏROV,**
**rejissor.**